**Tamadanın Yazılmamış Qaydalar Kitabı**
**Azərbaycan Məclislərində Tez-Tez İştirak Edən Xarici Qonaqlar Üçün**
**Jalə Qəribova**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 4.3 (Payız 1996)
© Azerbaijan International

Azərbaycanda elə bir məclis yoxdur ki, orada tamada olmasın, istər nahar məclisi olsun, istər toy, ad günü, istərsə də yubiley[1]. Qərbdə adamlar şampan, çaxır və ya araq dolu badələrni bir-birinə vurub səsləndirərək bir-birlərinə "Çiərz" və ya "Çao" deyərək sağlamlıq arzulayırlar, vəssalam[2].

Azərbaycanda isə belə deyil, burada bunun üçün xüsusi adam təyin olunur və ya bəzən kimsə tamada rolunu öz boynuna götürür. Tamada tamaşaçılar qarşısında çıxış edən konfransyeni xatırladır. Tamada sözü iki, "tam" (hamı, hər bir kəs) və "ata" (ata) sözlərindən formalaşmışdır ki, bu da "hamının atası" mənasını daşıyır[3]. Məna etibarilə bu ona tapşırılmış məsuliyyətdir - insanları bir-birilə əlaqələndirmək, onlara müşahidəçilik etmək və məclisin yaxşı keçməsini təmin etmək.

Qonaqların hamısının, heç olmasa ən vaciblərinin kimlər olduğunu bilmək və onları təntənəli təriflərlə formal təqdim etmək onun vəzifəsidir. Bu çıxışlar təbiət etibarilə əyləndirici, informasiya xarakterli, qeyri-rəsmidir və 10-15 dəqiqəyə qədər davam edə bilər. (Halbuki, hərdən adama elə gəlir ki, bu heç vaxt sona çatmayacaq).

Qonaqlar üçün tamadanın çıxışı böyük əhəmiyyət kəsb edir. Əgər o, işını yaxşı yerinə yetirməsə, onda onlar bu barədə öz aralarında danışacaqlar. "O tamada keçən gecə filankəsin toyundakı tamada kimi yaxşı deyildi. O, elə cansıxıcı idi ki. Kaş getməyəydik. Mənə sənə demişdim axı, vaxtımızı boş yerə sərf etməyək!"

Əgər sən əcnəbisənsə və Azərbaycan məclisinə dəvət olunmusansa, dili bilməməyinə baxmayaraq, sən yenə də azərbaycanlı dəyərləri, sosial status, iyerarxiya ardıcıllığı və qarşılıqlı münasibət nöqteyi-nəzərindən "kim kimdir" və "nə nədir" haqqında iri həcmdə bilik toplaya bilərsən. Əlbəttə, əgər həmin mərasimlərdə tərcümə təşkil edə bilsən və səbrlə hamısına qulaq asa bilsən, onda onlar sənin üçün daha mənalı olar.

Hər bir qayda və hər bir ictimai məclis üçün müəyyən istisnalar olsa da "ideal" tamada çıxışı üçün qabaqcadan hazırlanmış təsəvvür vardır. Aşağıda bir neçə yazılmamış qaydalar verilmişdir:

### 1. Yumor Hissi

Sənin güclü yumor hissin və insanları əyləndirmək bacarığın olmalıdır. Daimi olaraq repertuarını artırmaq və genişləndirmək üçün atalar sözləri, lətifələr, əfsanələr, poeziya, epik əsərlərdən epizodlar, dram və ya ədəbiyyat və Molla Nəsrəddin hekayələri kimi materiallardan işlətməyə çalış.

## 2. İyerarxiya

Məclisin özündə insanların bir-birini necə qəbul etdiklərinə fikir verməlisən. Kimlərin daha vacib qonaqlar olduğunu müəyyən et. Birinci onlara sağlıq de. Təbii ki, ad günlərində və yubileylərdə birinci səbəbkara sağlıq demək lazımdır. Toylarda isə birinci gəlinlə bəyin atasına, sonra anasına, daha sonra isə onların özlərinə sağlıq de. Hər iki ata haqqında birlikdə danış. Analar haqqında da həmçinin.

Ancaq əgər məclis sadəcə nahar yeməyi və ya ailə yığıncağıdırsa, onda ağsaqqalları müəyyən et. Onlara birinci sağlıq de[4].

Yaşlılara hörmət göstərdikdən sonra qrupun rəyi əsasında tanınmış qonaqların siyahısını tərtib et. Əgər eyni dərəcəli mühüm və ya tanınmış bir neçə qonaq vardırsa, iyerarxiyanı yaşa görə müəyyən et, daha yaşlıya birinci sağlıq de. Əgər məclis 20 nəfərdən çox deyilsə, onda elə et ki, gecənin sonuna qədər iştirak edən hər bir kəsə sağlıq deyilmiş olsun.

## 3. Əcnəbi Qonaqlar

Əcnəbi qonaqlara adətən digərlərinə nisbətən üstünlük verilir. Onlara hətta ağsaqqallardan əvvəl sağlıq de, xüsusilə də qrup elə çox böyük deyilsə. Ümumilikdə azərbaycanlılar xaricilərə qarşı çox açıq, istiqanlı və qonaqpərvərdirlər. Sağlıq deyərkən həmin qonaqların onları dünyanın bu hissəsinə gətirən fəaliyyətləri və biznesləri haqda danış. Sağlıq deyərkən mübalığə edə bilərsən. Qonağı tərifləyərkən yanılmaq onun vacibliyini azaltmaqdan daha yaxşıdır. Ən başlıcası isə elə et ki, bütün xarici qonaqlar özlərini rahat və qrupun üzvü hiss etsinlər.

## 4. Xüsusi Sağlıqlar

Biznes adamlarına iqtisadi uğurlarına görə; alimlərə ən əsas tədqiqatlarına görə; təhsil işçilərinə cəmiyyətdə tərbiyəedici rollarına görə; şairlərə və yazıçılara insanlığın ruhunu dərin qavradıqlarına görə (bir nəfərdən müəllifin əsərlərindən bir parça əzbər söyləməsini xahiş et) sağlıq de. Siyasətçilərə və ictimai şəxslərə yeni Respublikanın möhkəmləndirilməsində yardımlarına görə sağlıq de.

## 5. Vaxtın Müəyyən Olunması

Sağlıq demə həqiqətən də dramatik sənət növüdür. Tələsmək lazım deyil. Bütün günorta və ya axşam, (ən azı  3-4 saat) əlindədir. Hər sağlıq üçün ən azı 5-10 dəqiqə və ya daha çox vaxt ayır. Bir balaca yaradıcılıq qabiliyyəti ilə sadə adamlar belə sözlə qəhrəmana, şahzadəyə və hətta dünyanın xilaskarına çevrilə bilər.

## 6. Uzaqda Olan Dostlar Və Qohumlar

Hətta məclisdə tanıyan belə olmasa da, gəlməyən dostlar və qohumları yaddan çıxarma. Onlar hətta başqa qitədə yaşasalar da fərqi yoxdur. Əmin ola bilərsən ki, nə vaxtsa və hardasa uzaqda olan həmin şəxs sağlıq barədə xəbər tutacaq və qiymətləndirəcək.

**7. Mətbəxdəki Qadınlar**
Heç vaxt bu məclisin yaxşı keçməsi üçün, xüsusilə də yeməklərin ləzzətli olması üçün xüsusi səy göstərmiş qadınları yaddan çıxarma. Nənəni, xala və bibiləri, anaları və bacıları qonaqların yanına dəvət et və sağlıq de. Onların cəhdlərini mükafatlandır. Yeməyi təriflə və sağlığı ənənəvi arzu olan "Üstümüzdən əskik olmayasınız"[5] və ya "Əliniz-qolunuz var olsun"[6] ifadəlari ilə bitir.

**8. Analar**
Baxmayaraq ki, ev sahibinin və ya sahibəsinin anası ən son sağlıq deyilənlərən biri ola bilər, ona sağıq deyərkən "Dünyanın bütün anaları" adı altında ümumiləşdirmək və onların insanlığa böyük töhfə verdiyini söyləmək məqsədəuyğundur. Bütün qonaqlardan ayağa durmağı və onların şərəfinə badə qaldırmağı xahiş et.

**9. Ümumi Sağlıqlar**
Əgər qonaqların çoxu eyni ixtisasdan, məsələn, rəssam, yazıçı, teatr işçisi, təhsil xadimi, yaxud alimdirsə, onda onlara bir qrup kimi sağlıq de. Onların cəmiyyətə necə böyük mənəvi töhfə verdiklərindən söhbət aç.

**10. Qarabağın Azadlığı Naminə Sağlıq**
Son zamanlar erməni silahlı qüvvələrinin işğalı altında olan Qarabağa da sağlıq deyilir. Azərbaycanlılar bu yerin rəsmi olaraq Azərbaycana qaytarılmasını və Sovet dövründəki ərazi bütövlüyünün təmin olunacağı günü səbirsizliklə gözləyirlər. Qarabağa deyilən sağlıq işğal edilən 20% Qarabağ və ətraf ərazilərin geri alınmasını, yerlərini tərk etməyə məcbur olmuş bir milyona yaxın qaçqının öz yurdlarına qaytarılmasını arzu etmək deməkdir.

**Qonaqlar Üçün Etiket Qaydaları**
Bəzi etiket qaydaları vadır ki, tamada sağlıq deyərkən qonaqlar onu ümumi şəkildə müşahidə etməlidirlər. Sağlıq 15 dəqiyə qədər davam etsə belə, bu zaman yeməyə əl uzatma, içki içmə və yanında oturanla söhbət etmə. Formal olaraq birlikdə içmək qəbul olunduğu üçün sağlıqlar arasında heç vaxt içmə.

Əgər şəxsi, səhiyyə və ya dini səbəblərə görə içmirsənsə, səbəbi şişirtməsən azərbaycanlılar sənə daha çox hörmət edəcəklər, nəinki içməkdən imtina etməsən. Yaxşı olardı ki, sadəcə olaraq başqaları kimi yalnız badələri toqquşdurasan və simvolik olaraq badəni dodaqlarına yaxınlaşdırasan. Əgər daha içmək istəmirsənsə, içməyə bilərsən. Əsas odur ki, məclisi şənləndirəsən, dostluq əhval-ruhiyyəsi yaradasan və ləzzət alasan.

Azərbaycanda uzun dövrdən bəri yaranmış tamadalıq ənənəsinin şərəfinə "Badələri qaldırın!"

Ən Kresler məqalənin hazırlanmasında yardım etmişdir.

**Qeydlər.**

[1] Yubileylər cəmiyyətdə hörmət qazanmış, xüsusi ilə də incəsənət, musiqi, elm, təhsil və əbəbiyyat sahəsində tanınmış adamların ad günlərinin ictimai şəkildə qeyd olunması münasibəti ilə təşkil olunur. Adətən bu cür adamlar üçün yubiley 60 yaxud 70 illikləri münasibəti ilə təşkil olunmasına baxmayaraq, hədsiz sevilən şair və yazıçıların yubileyi hətta 40-50 yaşlarında belə keçirilə bilər. Bəziləri cəmiyyətdə o qədər hörmət qazanır ki, hətta vəfatından sonra belə onun yubileylərinin təşkil edilməsinə davam edirlər. Məsələn, Uzeyir Hacıbəyovun 1948-ci ildə vəfat etməsinə baxmayaraq, 1995-ci ilin 10 dekabrında onun 110 illik yubileyi keçirildi.

[2] Azərbaycan dilində oxşar ifadələr var, məsələn, “sağ ol”, “sənin sağlığına”, “xoşbəxt ol”.

[3] Tamadalar adətən kişi olur. Lakin yalnız qadınların iştirak etdiyi məclislərdə qadınlar bu vəzifəni öz üzərlərinə götürürlər, qarışıq məclislərdə isə “öz əlavələrini edirlər”.

[4] Ağsaqqal və ağbirçəklər cəmiyyətin ən yaşlı təbəqəsi sayılır və öz müdrik məsləhətlərinə, bilik və təcrübələrinə görə hamıdan artıq hörmət olunur.

[5] Üstümüzdən əskik olmayasan

[6] Əlin-qolun var olsun

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Jalə Qəribova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova